# ƏSİRLİKDƏ QALMIŞ İRƏVAN XANLIĞININ PƏMBƏK MAHALINDA ARÇUT (ARDIC) KƏNDİ İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ (1941-1945-ci illər)

*(Əvvəli ötən sayımızda)*

*Müharibə bir tarixi oyundur, bəzən ən mahir də uduzur.*
**M.K.Atatürk**

Yeri gəlmişkən, o zaman əsgər ailələri dövlət rüsumundan azad idi, anacaq digər ailələrin vəziyyəti daha ağır idi. Onlar yuxarıda qeyd edilən mal-qaranı saxalaya bilmirdilər. Çünki mal-qaraya (inəklər, qoyunlar və keçilər) qoyulan dövlət rüsumları (ətlik, yağ, yun, yumurta, dəri) o qədər çox idi ki, onu ödəmək mümkün olmurdu. Bunun ucbatından ev heyvanlarının saxlanılması lazım gəlmirdi.

Nəhayət, qıtlıq yaranırdı. Hətta bu sətirlərin müəllifi mən rüsumları verə bilməyən evlərdən dövlət nümayəndələri, əşyalarını, yorğan-döşəklərini apardıqlarını gözlərimlə görmüşəm.

2 inək, 15 qoyun və 26 sot susuz torpağın müqabilində hər bir kolxozçu ailəsi aşağıdakı vergiləri verməli idi: 1 inəyə 14 kq. yağ, 1 qiyuna 1.6 kq. yun, 2 dəri, qeyd edilən torpağın müqabilində 46 kq. ət, 75 yumurta, 2.5 put kartof, 1.5 taxıl pud və torpağın hər sotuna 12manat (1 kq. qəndin qiyməti) verməli idi. ona görə əksər kolxozçular torpağından imtina edib, ərizə ilə torpağını kolxoza birləşdirirdilər. Qeyd edilən bu vəziyyət 1953-cü ilə qədər - Stalin ölümünə qədər davam etdi.

Müharibə dövründə Arçut kənd "26-lar" kolxozunun qabaqcıl qadın işçilərinin adlarından qeyd etmək olar: Fatma İsgəndərova, Şəhri Vəliyeva,Gülsüm İsgəndərova, Gülüstan Məmiliyeva, Pəri Orucova, Fatma Əmiraslanova, Gülüstan Quliyeva, Gülüstan Kərbəlayeva, Füruzə Bayramova, Əsmər Məmmədova, Leyli İbrahimova və s. Bu qadınlar müharibə vaxtı da daxil olmaqla, kolxozun aparıcı işçiləri idi.

Arxa cəbhədə baş verən digər epizodlar haqqında. Sovet İttifaqının kiçik bir nöqtəsi olan Arçut (Ardıc) kəndindən 1938-1945-ci illər ərzində 199 nəfər səfərbərliyə alınmışdır ki, bu da bütün əhalinin 15-ni təşkil edir. O zaman 1941-ci ilin 1 yanvarında 209 ailənin 1080 nəfər sakini olmuşdur. Adı çəkilən bu kəndin səfərbərliyə alınmış oğlanları Qafqazdan başlayaraq Volqa boyu, Ukrayna, Krım, Moskvaaltı, Pribaltika, Belorusiya, Dnestrboyu, Polşa və digər Şərqi Avropa ölkələrinin döyüş cəbhələrindən keçmiş və düşmən yuvası olan Berlin də daxil olmaqla döyüç yolu keçirmiş və orada yaşayan insanların faşizmdən azad olunmasında fəal iştirak etmişlər.

Müharibə dövründə (1941-1945-ci illər) səfərbərliyə alınmış 199 nəfərdən 78 nəfəri ailələrinə qayıtmamışlar. Qayıdan 121 nəfərdən 70 nəfəri əlil olmuş, evlərinə qayıtmışdır, digər sağ qalan 51 nəfər isə cəbhə arxasında iştirak etmişdir. Bu arxa cəbhə iştirakçılarının 22 nəfəri 1925-1926-cı illərdə anadan olanlardı. Onlar 1944-cü ildə orduya çağırılmışlar.

Yeri gəlmişkən, keçən əsrin 70-ci illərində mən - Arçut orta məktəbinin hərbi müəllimi kimi müharibədə həlak olanların siyahısını hərbi komissarlıqdan əldə etdim və həmi rayon miqyasında, həm də kənddə məsələ qaldırdım ki bu həlak olanlara xatirə abidəsi düzəlsin. Çünki bütün erməni kəndlərində dövlət hesabına xatirə abidəsi düzəldilmişdir, ancaq bizim kənddə yox idi. Rayon rəhbərliyi mənə cavab verdi ki, çox kəndlərdə kolxoz və sovxozların hesabına İkinci Dünya müharibəsində həlak olanlara abidə qoyulub. Sizin sovxoz da bu işi görə bilər. Mən rayon rəhbərliyinin cavabını sovxoz direktoruna çatdırdım, o da dedi ki, sovxozun elə bir imkanı yoxdur ki, bu abidəni ucaltsın. Sovxoz yalnız nəqliyyat və digər texniki maddi imkanlara kömək edə bilər. Siz valideynlərə müraciət edin. Mən gəlib valideynlərə, həlak olanların bacı və qardaşlarına abidə barədə söhbət elədim. Bəziləri razılaşdılar, bəziləri isə heç əhəmiyyət vermədilər. Ancaq mən öz gücümlə məktəbin üçünücü mərtəbəsində "Döyüş Şöhrəti Muzeyi" düzəltdim, orada həlak olanlar və veteranların fotoşəkillərindən stendlər düzəltdim. Həm də orada onların üçbucaq məktublarında qeyd edilən məlumatlardan da istifadə edib həlak olanların və veteranların döyüş yolu haqqında məlumatlar nümayiş etdirdim.

Təəssüfki, şagirdlərin, müəllimlərin və valideynlərin köməyi ilə təşkil edilmiş və düzəldilmiş şöhrət muzeyi məktəbin digər fənlərinə aid guşələr kimi 1988-ci ildə ermənilərə əsir düşdü. Ancaq mənim arxivimdə və papkalarımda rayon hərbi komissarlığından və üçbucaq məktublardan topladığım məlumatların surətləri vardır. Onlardan istifadə edərək həmin məlumatları Azərbaycan Respublikasının Xatirə Ensiklopediyasında nəşr olunan 6 və 7-ci cilddə nəşr etdirə bildim (bax: "Xatirə" kitabının 6-cı cildi, səh. 679-682 və 7-ci cild, səh. 224 və 225 səhifələr arasında foto-şəkillər kompleksi)

Yeri gəlmişkən, Böyük Vətən müharibəsi deyilən bu müharibədə Arçut kəndi həm ön cəbhədə, həm də arxa cəbhədə dəhşətli fəsadlara, fiziki və mənəvi təhqirlərə məruz qalmışlar. Burada həlak olanlar və əlil olanlar bir yana qalsın, arxada qalan dinc əhali daha dəhşətli zülmlər görmüşlər. Bu barədə bəzi epizodlardan qeyd etmək yerinə düşər. Arxa cəbhədə çox acınacaqlı hadisələr - yuxarıda deyildiyi kimi aclıqlar, zorakılıqlar, məhkəməsiz cəzalar baş alıb gedirdi. Bu xoşagəlməz hadisələr Sovet hakimiyyətinin çürük qanunlarından yaranaraq özbaşınalıq və qanunsuzluq hökm sürürdü. Bu ədalətsizliyə qarşı çıxanlar dövlətin qanunlarına məhəl qoyulmadan cəzalandırılırdı. Məsələn, o dövrdə baş vermiş aclığın qarşısı dövlət tərəfindən alınmırdı və əhaliyə heç bir kömək edilmirdi. Aclıq çəkən kolxozçular 26 sot torpağından əkdiyi taxılın yetirməsini gözləyirdilər ki, taxıl yetişsin, az-çox aclıqlarının qarşısını alsınlar. Ancaq burada tez üzvü torpaqlarında əkdikləri taxıldan qırp edib onu qovurub, əl kikrələrində qoyut və yarma çəkib aclıqlarının müəyyən müddət qarşısını alırdılar və gözləyirdilər ki, dövlət tərəfindən əmək gününə verilən taxıldan istifadə edəcəklər, qış azuqələrini bəzi hallarda təmin edəcəklər.

Baş vermiş hadisələrə aid bir epizod: Binnətov Hüseyn Məmməd oğlu yaşlı olduğu üçün orduya səfərbər edilməmişdir. Ancaq o da çətinliklə ailəsini dolandırırdı. Onun 26 sot torpağı evinin qarşısında idi. Onun həyətində əkilən arpadan ailəsi qırp edib ki, taxılı qovurub, qoyut və yarma hasil etsinlər. Ancaq Binnətov Hüseyn kolxoz sədri haqqında rayon rəhbərliyinə kolxoz sədrinin nöqsanları haqqında məlumat verirmiş. Deyilənə görə, o, NKVD ilə əməkdaşlıq edirmiş. Bir gün kolxoz sədrini, İsayev Orucu NKVD çağırıb deyir ki, sənin haqqında pis və mənfi məlumatlar vardır. O, kim tərəfindən verildiyini öyrənir və Hüseyinin qonşuluğunda yaşayan kolxozçulardan biri əlaqə saxlayır ki, əgər onun evində qırp varsa, kolxoz sədrinə məlumat versin. Həqiqətən də Hüseynin qapısındakı əkindən ailəsi qırp edibmiş. Kolxoz sədri Oruc bunları öyrəndikdən sonra NKVD-dən adamlar çağırtdırdı (mən o hadisəni gördüm), Hüseynin evini gəzdilər, yığılmış qırpı apardılar, kənd Sovetinin idarəsində çəkdilər, 4 kq. gəldi. Hüseyni təqsirləndirdilər ki, sən kolxozun tarlasından qırp edibsən. O, and içdi, aman elədi ki, bu qırpı öz ailəsi öz torpağında əkilmiş arpadan edib. Gedib, mənim həyətimdə əkilmiş əkini yoxlaya bilərsiniz. Ancaq onun şikayətinə baxan olmadı. Akt tərtib etdilər ki, guya həqiqətən qırp kolxozun tarlasından yığılıb. Akta kənd Soveti möhür vurmalı idi. Ancaq o, möhür vurmaq istəmədi. Kolxoz sədri ona təsir göstərdi ki, aclıq baş alıb gedir və kolxozçular kolxozun tarlalarında qırp yığmağa meyillidirlər. Bunu qarşısını almaq üçün mütləq bu işi təsdiqləmək lazımdır ki, digərləri qorxusundan bu yola düşməsinlər. Kolxoz sədri Kənd Sovetinə söz verdi ki, Hüseyni NKVD aparsın, bir neçə gündən sonra onu çıxarıb, gətirəcəm. məqsəd odur ki, kolxozçular qorxu hiss etsinlər, bir daha tarlalara qırp üçün hücum etməsinlər. Nəhayət ki, kənd Soveti aktı möhürlədi və Hüseyni NKVD-nin üstüörtülü maşınında qalaya apardılar. Az keçmədi, Hüseynin məhkəməsi oldu, ona 5 il iş verdilər. Hadisə 1943-cü ilin avqust ayında olmuşdur. İki aydan sonra Şimali Qafqazın Nalçik şəhərindən ailəsinə onun ölüm qiymətinin pulu 72 qəpik qiymətində qara kağızı gəldi. Bu 72 qəpik o zaman 200 q. çörəyin pulu idi. Oxucular müəyyən etsinlər, o vaxtki Sovet hökuməti günahsız insanları necə cəzalandırırdı.

Kənddə baş vermiş digər bir epizod: Kənd sakini Məmmədov Hümbət Mahmudoğlu 1941-ci ildə birinci səfərbərlikdə orduya çağırılmışdı. O, artıq iki il idi ki, qulluq edir. Kolxoz sədri onun arvadı ilə evində qeyri-rəsmi nigaha girmirdir, həm də onun kənd maqazininin satıcısı qoydu. Hümbətin kiçik qardaşı Binnət bu barədə ona məktub yazdı. Hümbət yazılmış məktubu alıb oxuduqdan sonra məktubu hərbi hissənin komandirinə oxuyur və icazə alıb gəlib arvadını rəsmi olaraq boşadı və yenidən hərbi hissəyə qayıtdı. Arxa cəbhədə buna bənzər hadisələr çox olmuşdur.

Kənddə "broniya" ilə iş aparanlar "dərə xəlvət, tülkü bəy" atalar sözünü lazımınca yerinə yetirirdilər.

Beləliklə, kənddə arxa cəbhədə acınacaqlı vəziyyət davam edirdi. Kənddə cürbəcür xoşagəlməz hadisələr baş verirdi. Bunların da bir səbəbi var idi ki, ölkə aclıq içərisində yaşadığından rayon rəhbərlərinin iqtisadi cəhətdən təmin olunmaq ehtiyacı vardır. "Broniyalı" rəhbərlər əlaqədar rayon rəhbərlərini iqtisadi cəhətdən təmin edirdilər, onlar da yeri gələndə bu xöşagəlməz hadisələri törədən "broniyalı" rəhbərlərin tərəfini saxlayır, onları müdafiə edir, təmizə çıxarırdılar.

Bu mülahizəni bir epizod da təsdiq edə bilər: 1954-cü ilin avqust ayında kəndin maqazininin qarşısında İbraim Xəlil kişinin bağında qoca kəndlilərlə bərabər kolxoz rəhbərləri ağac kölgəsində söhbət edirdilər. Kənd maqazininin satıcısı qoca Yaşlı kommunist Hidayət kişi ilə kolxoz sədri İsayev Orucla mübahisə edirdilər. Hidayət kişi kolxoz sədrini tənqid etdi. Buna cavab olaraq kolxoz sədri İsayev Oruc onu hədələdi və dedi: "Sən mənə heç də həcv etmə. Mənimlə sən ayaq uzada bilməzsən. Mənim 4 fermam var (maldarlıq, qoyunçuluq, arıçılıq, bostançılıq - Y.Q.) Sən mənə heç nə edə bilməzsən, özün tələyə düşərsən".

Aradan 2 gün keçmişdi, maqazinə çörək gətirdilər. Çörək maşını getdikdən sonra az vaxt içərisində rayon koptorq idarəsindən maşınla gəlib maqazinin qarşısında dayandılar. 2 nəfər avtomaşından düşüb alıcı Nəsibov Rəhimin aldığı çörəyi çəkdi.

***(Davamı var)***



***Yusif QAZIYEV,***
***Pedaqogika üzrə elmlər doktoru, Əməkdar müəllim, Əmək veteranı AJB-nın üzvü, "Qızıl Qələm" laureatlı jurnalist-publisist, Prezident təqaüdlü, müstəqil tədqiqatçı***